Xalq qəzeti 2020.- 8 yanvar.- S.6.

# İlə böyük ümidlərlə qədəm qoyuruq



**Müstəqil Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsinin ən çətin dövründə – ölkəmizin dünya xəritəsindən silinmə təhlükəsi yarandığı bir şəraitdə belə ağır təhlükənin qarşısının alınmasının yeganə yolu el gücünün birləşdirilməsi, mənfur düşmənlərə qarşı birgə mübarizə aparmaq idi. Bu yolun əsas istiqaməti dünya azərbaycanlılarının sıx vəhdətinin, həmrəyliyinin yaradılmasından keçirdi. Belə bir həmrəyliyi öz nadir təxəyyül süzgəcindən keçirərək, reallaşdıran beynəlxalq aləmdəki siyasi gərdişlərdə güc və söz sahibi olan, görkəmli dövlət xadimləri sırasında ön cərgədə dayanan, müdriklik, bəşərilik, ədalətlilik, obyektivlik, xeyirxahlıq zirvələrini fəth edən dahi Heydər Əlirza oğlu Əliyev oldu.**

Ulu öndərin Azərbaycanın müstəqilliyinin bərpa olunmasını gözü götürməyənlərə qarşı apardığı çoxcəhətli mübarizəsinin prioritet istiqamətlərindən birinin -- 31 dekabra Dünya Azərbaycanlılarının Həmrəylik Gününün yaradılmasına gətirib çıxarması hamının ürəyincə oldu. Ümummilli liderimiz hər sahədə olduğu kimi, dünya azərbaycanlılarının həmrəyliyinin də bacarıqlı memarı olmaq missiyasının şərəfli yükünü öz çiyinləri üzərinə götürdü və bunu müdrikliklə həyata keçirdi. Bunun sayəsində müxtəlif səbəblərdən dünyanın bütün nöqtələrinə səpələnmiş Azərbaycanın vətənsevər oğul və qızlarının həmrəylik günü təsis edildi. Bununla Azərbaycanı özünə dayaq, doğma Vətən hesab edənlərin xarici ölkələrdə yaratdıqları diaspor təşkilatçılığının möhkəm bünövrəsi qoyuldu.

Bir ziyalı kimi əminliklə deyə bilərəm ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf konsepsiyasını böyük müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmizin sosial-iqtisadi inkişaf tempi fonunda bütün sahələrdə olduğu kimi, siyasi, mədəni, incəsənət, elm, təhsil, səhiyyə və digər sahələrə dövlət qayğısı sayəsində sürətli inkişafa nail olundu. Beynəlxalq əlaqələrini durmadan genişləndirən, iş prosesini təkmilləşdirən, yeni layihələr üzrə fəaliyyət göstərən elm, təhsil, səhiyyə işçiləri onlara göstərilən diqqət və qayğıya adekvat olaraq Azərbaycan övladlarının elmi biliklərə dərindən yiyələnmələri, hərtərəfli sağlam böyümələri, vətənsevər övlad kimi yetişmələri üçün bütün potensiallarının səfərbər olunması yolu ilə əllərindən gələni etməyə çalışırlar.

Dövlətçiliyimizin əbədiliyinə, müstəqilliyimizin dönməzliyinə xidmət edən elm, təhsil və səhiyyə işçiləri özlərinin fədakar əməkləri, yerinə yetirdikləri faydalı işləri, maarifləndirici peşələri ilə daim Prezidenti dəstəkləyir, onun daxili və xarici siyasətini ürəkdən bəyənirlər. İl-ildən uğurlu gəlir. Bu mənada Azərbaycan xalqı 2020-ci ilə böyük ümidlərlə qədəm qoydu.

Mən fürsətdən istifadə edərək, Azərbaycan Prezidenti başda olmaqla xalqımızın, millətimizin hər bir nümayəndəsini 31 Dekabr -- Dünya Azərbaycanlılarının Həmrəylik Günü və 2020-ci ilin gəlişi münasibətilə səmimi qəlbdən təbrik edir, soydaşlarımızın hər birinə cansağlığı, xoşbəxtlik, sülh, səadət, başımız üzərində aydın səma, firavan həyat diləyir, mükəmməl yaradıcılıq və quruculuq işlərində yeni – yeni nailiyyətlər arzulayıram.

**Əhliman ƏMİRASLANOV,**
**akademik, SSRİ Dövlət mükafatı laureatı, beşinci çağırış Milli Məclisin səhiyyə komitəsinin sədri**